Millî Kültür Araştırmaları Dergisi (MİKAD) Cilt: 3- Sayı: 2- Aralık 2019 ISSN: 2587-1331

# QOCA ŞƏRQİN SÖNMƏYƏN ZƏKA ULDUZLARI

**Ülkər Məmmədova** [1]

Bəşər tarixində alimlərin və mütəfəkkirlərin fikirləri bəzən cəmiyyətdə qəbul edilməyərək faciə ilə nəticələnmişdir. Onlar öz zamanında haqsız hücumlara məruz qalmış və zəkası, bacarığı qiymətləndirilməmiş, əksinə, qətillərinə səbəb olmuşdur. Orta əsrlər elm və ədəbiyyat tarixində bu faciə ilə qarşılaşmış neçə-neçə şəxsiyyətlər olmuşdur. İndiki vaxtda onların doğum tarixləri ilə yanaşı, ölüm tarixləri də qeyd edilir. Məqalədə irəli sürdüyü fikirlərə görə qətlə yetirilmiş Eynəlqüzat Miyanəci (1099-1131), Şihabəddin Yəhya Sührəvərdi (1154-1191), İmadəddin Nəsimi (1369-1417) haqqında qısa məlumat verilir. Burada bildirilir ki, 2016 ilində Eynəlqüzat Miyanəcinin ölümünün 885, Şihabəddin Yəhya Sührəvərdinin 825, İmadəddin Nəsiminin 600 illəri qeyd olundu. 2019-cu ildə Eynəlqüzat Miyanəcinin anadan olmasının 920, Şihabəddin Yəhya Sührəvərdinin 865, İmaməddin Nəsiminin 650 illiyi tamam olur. Onları dünyagörüşünə görə İmaməddin Nəsiminin ideya sələfləri hesab olunurlar.

**Açar sözlər:** Azərbaycan ədəbiyyatı, şair, sufizm, panteizm, hürufilik, işraqilik

## KOCA ŞARKIN SÖNMEYEN ZEKA YILDIZLARI

İnsanlık tarihinde, alimlerin ve düşünürlerin görüşleri bazen toplumda gözardı edilmiş ve trajedi ile sonuçlanmıştır. Onlar; zamanında haksız saldırılara maruz kalmış, zeka ve becerileri ile değerlendirilmemiş, hatta bu uğurda hayatlarından olmuşlardır. Ortaçağ bilim ve edebiyat tarihinde, bu trajedi ile karşı karşıya kalan birçok insan var. Doğum günlerine ek olarak ölüm tarihleri de kaydedilmektedir. Makale, yorumları nedeniyle öldürülen Aynalkudat Miyaneci (1099-1131), Şihabeddin Yahya Sühreverdi (1154-1191) ve İmadeddin Nesimi (1369-1417) hakkında bilgi vermektedir. Burada bildirilir ki, 2016 yılında Aynalkudat Miyaneci'nin ölümünün 885, Şihabeddin Yahya Sühreverdi'nin 825, İmadeddin Nesimi'nin 600 yılları gibi hatırlanır. 2019 yılında, Aynalkudat Miyaneci'nin doğum yılının 920, Şihabeddin Yahya Sühreverdi'nin 865, İmadeddin Nesimi'nin 650 senesi tamam olur. Onlar dünya görüşlerine göre İmamaddin Nasimi'nin fikir öncüleri olarak kabul edilirler.

**anahtar kelimeler:** Azerbaycan edebiyatı, şair, sufilik, panteizm, hurufilik, işrakilik

## UNEASY İNTELLECTUAL STARS OF THE OLD EAST

Throughout the history of mankind, ideas put forward by some scientists and thinkers, not perceived by society, have led to serious consequences. They were subjected to unjust attacks in

[1] *Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*, Doç.Dr., u.z.m-9-9@mail.ru

time, their intelligence and skills were not evaluated, on the contrary, they caused their killers. In the history of medieval science and literature there were individuals who faced this tragedy. In our time, together with their birth dates, the date of their death is also marked. The article briefly reports on the murder for the ideas put forward by Eynalguzat Miyanaji, Shihab al-Din Yahya al-Suhrawardi, Imadaddin Nasimi. In 2016, it is also reported that after the death of Eynalguzat Miyanaji passed 885 years, Shihab al-Din Yahya Suhrawardi passed 825 years, Imamiddin Nasimi passed 600 years. In 2019, the 920th anniversary of the birth of Eynalguzat Miyanaji, the 865th anniversary of Shihab al-Din Yahya al-Suhrawardi and the 650th anniversary of Imamaddin Nasimi are celebrated. They were considered according to the worldview of Imadaddin Nasimi's predecessors.

**Key words:** Azerbaijani literature, poet, sufism, pantheism, hurufism, illuminationist

**Giriş:**

Müasir dövrdə bütün düşüncə sahiblərinin öz fikirlərini, qənaətlərini sübuta yetirməsi adi haldır. Ötən yüzilliklərə nəzər saldıqda kəşflərin, ideyaların səslənməsi, bəyanı bəzən onun yaradıcılarının həyatı bahasına başa gəldiyinin şahidiyik. Bütün bunları qiymətləndirmək nə qədər çətin olsa da, orta əsrlər müsəlman Şərqində neçə-neçə görkəmli simalar bu tarixin acı reallığının qurbanı olmuşdur. Təəssüflə qeyd etmək lazımdır ki, ictimai fikrin inkişafında yaratdıqları orijinal ideyaların cəmiyyətdə qəbul edilməməsinin, başa düşülməməsinin faciəsini yaşamış dahi şəxsiyyətlər arasında əslən Azərbaycandan olan mütəfəkkirlər də vardır. Ömürlərinin qısa olmalarına baxmayaraq, onlar yazdıqları əsərlərilə, irəli sürdükləri ideyalarla müdrikliyin nümunəsini yaratmışlar. Təqiblərə məruz qalmış azərbaycanlılardan bəhs edərkən Eynəlqüzat Miyanəci 32, Şihabəddin Yəhya Sührəvərdi 37, İmadəddin Nəsimi 48 yaşlarında öz ideyalarının qurbanı olmuş şəxsiyyətlər sırasında yada düşür. Filosof, şair və ədib keyfiyyətlərini özlərində daşıyan, əsərlərində fəlsəfi məzmunu əks etdirən həmin şəxsiyyətlərin həyatı, əzmi və iradəsi daim örnək göstərilmişdir.

1991-ci ildə Azərbaycanda Şihabəddin Yəhya Sührəvərdinin fəlsəfi irsinin yeganə tədqiqatçısı Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, fəlsəfə elmləri doktoru, professor Zakir Məmmədovun təşəbbüsü ilə Akademiyanın Rəyasət Heyəti mütəfəkkirin vəfatının 800 illiyi ilə əlaqədar qərar qəbul etdi. Bu münasibətlə də, Zakir Məmmədov 20 ildən artıq araşdırmasının nəticəsi kimi “Şihabəddin Yəhya Sührəvərdi (qısa biblioqrafik məlumat)” kitabını hazırladı və nəşr etdirdi. Burada dahi mütəfəkkirin əsərlərinin adları, əlyazmalarının saxlanıldığı kitabxanalar, çap nüsxələri haqqında məlumatla yanaşı, Şihabəddin Sührəvərdi barədə xəbər verən mənbələr və tədqiqatlar da göstərilmişdi (Məmmədov, 1991).

2016-cı il əslən azərbaycanlı iki dahi mütəfəkkirin əqidəsi uğrunda öldürülmələrinin ildönümü ilə üst-üstə düşdü. Onlardan biri Eynəluqüzat Əbülməali Abdulla ibn Məhəmməd Miyanəci (1099-1131), digəri isə Şihabəddin Yəhya Sührəvərdidir (1154-1191). Eynəlqüzat Miyanəcinin qətlindən 885 il, Şihabəddin Sührəvərdinin qətlindən isə 825 il keçdi. Onların hər ikisi dünyanı çox erkən tərk etmiş, əqidələri uğrunda öldürülmüşlər. Yazdıqları əsərlərin əhəmiyyətini, zənginliyini gördükdə bunu gəncliyin möcüzəsi adlandırmaq olar. Onların hər ikisi dinsizlikdə ittiham edilərək qətlə yetirilmişlər. Bu görkəmli şəxsiyyətlər XII əsrin yetirdiyi fitri istedadlar sayılsalar da, onların məhvi yüzilliyin acı reallığıdır.

2017-ci ildə isə dahi mütəfəkkir İmadəddin Nəsiminin (1369-1417) qətlindən 600 il ötdü. Həmin ilin may ayında Parisdə YUNESKO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyi qeyd edilmiş, 2018-ci ilin sentyabr ayında ölkəmizdə ilk dəfə Nəsimi şeir, incəsənət və mənəviyyat festivalı keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə isə 2019-cu il görkəmli mütəfəkkirin anadan olmasından 650 illiyi münasibətilə Azərbaycan Respublikasında “Nəsimi ili” elan edilmişdir.

2019-cu il eyni zamanda Eynəlqüzat Miyanəci və Şihabəddin Yəhya Sührəvərdi şəxsiyyətləri üçün də xüsusi anlam kəsb edir. Belə ki, Eynəlqüzat Miyanəcinin anadan olmasının 920, Şihabəddin Yəhya Sührəvərdinin anadan olmasının 865 ili tamam olur. Bu səbəbdən də, hər üç mütəfəkkirin həyat və yaradıcılıqlarına müqayisəli şəkildə nəzər salmaq maraqlı olardı.

**Eynəlqüzat Miyanəci:**

XII əsrin görkəmli filosofu, şairi, ədibi Eynəlqüzat Əbülməali Abdulla ibn Məhəmməd ibn Əli Miyanəci (1099-1131) dövrün mənzərəsində filosof və söz xəzinəsinin sahibi kimi mühüm rol oynamış dahi şəxsiyyətdir. Aldığı yüksək təhsil, irəli sürdüyü dəyərli fikirlər, yaratdığı misilsiz əsərlər qısa ömür yaşamasına baxmayaraq, ona dövrünün zəka sahibləri arasında xüsusi mövqe qazandırmışdır.

XI əsrin tanınmış hüquqşünas alimi və şairi Əbülhəsən Əli Miyanəci Eynəlqüzat Abdulla Miyanəcinin babasıdır. "Miyanəcilər XI-XII əsrlərdə istedadlı şairlər, görkəmli alimlər yetirmiş böyük nəsildir. Onlardan Eynəlqüzat Miyanəcinin babası Əbülhəsən Əli Həsən oğlu Miyanəci mükəmməl təhsil görmüş hüquqşünas alim və incə təbli şair kimi tanınmışdır" (Məmmədov, 1994: 123).

Mənbələrdə Əbülhəsən Əli ibn Həsən Miyanəcinin həyatı və fəaliyyəti barədə geniş məlumat yoxdur. Dövrümüzə gəlib çatmış qaynaqlarda fikirlər demək olar ki, bir-birini təkrarlayır. Mənbələrdə alim qazi olmaqla yanaşı, istedadlı şair kimi də xatırlanır, "Bağdadın məşhur fəzilətlilərindən biri" deyilərək təqdim edilir. O, 1079-cu ilin aprel ayında sübh namazı vaxtı öz məscidində qətlə yetirilmişdir (əl-Əsnəvi, 1987: 212).

Əli Miyanəcinin dövrümüzə az sayda beyti gəlib çatmışdır. Onlardan birində o, Mauşanı tərənnüm etmişdir. Maraq doğuran cəhətlərdən biri budur ki, məxəzlərdə Mauşan haqqında məlumat verərkən məkanın gözəlliklərini Əli Miyanəcinin və onun nəvəsi Eynəlqüzat Miyanəcinin şeirlərindən nümunələr verməklə tərənnüm etmişlər.

Eynəlqüzat Miyanəcinin atası Əbubəkr Məhəmməd ibn Əli ibn Həsən Miyanəci də adlı-sanlı hüquqşünas alim və Həmədan şəhərinin qazisi olmuşdur. Mənbələrdə o, Həmədanın qazisi, "fəzilətili, zəkalı, xoş görünüşlü" kimi xatırlanır. Orta əsr müəlliflərindən biri onun haqqında yazmışdır: "Fəzilətli, fəzilətlinin oğlu və fəzilətlinin atası. Yəni o, Qazi Əli Miyanəcinin oğlu, Eynəlqüzat Abdulla Miyanəcinin atasıdır"" (Məmmədov, 1992: 8).

Orta əsr mənbələrindən və bu sahədə aparılmış tədqiqatlardan məlumdur ki, Eynəlqüzat Miyanəci əslən Miyanə şəhərindəndir. Lakin "Həmədanda doğulub yaşadığına görə Həmədani kimi də məşhurdur. O, baş qazi vəzifəsində dərin hörmət qazandığından "Eynəlqüzat" (Ayn əl-qudat – Qazilərin gözü) fəxri adını almışdır. "Əbülməali" ləqəbi isə "Fəzilətlər atası" deməkdir" (Məmmədov, 1994: 123).

Mütəfəkkirin həyatı tədqiqatlarda hər zaman müxtəlif mənbələrə istinadən təqdim olunmuşdur. Yazılanlara əsasən məlumdur ki, "Eynəlqüzat Miyanəci təhsilə çox erkən başlayıb, Ömər Xəyyam (1048-1131), Əhməd Qəzali (…-1126), Məhəmməd Cüveyni (1057-1135) və başqalarından elmin müxtəlif sahələrini mükəmməl öyrənmişdir" (Məmmədov, 1994: 123). O, sufizmə güclü maraq göstərmiş, mövcud bir sıra müddəaların tərəfdarı olmaqla yanaşı, əsərlərində dolğun mühakimələrilə də seçilmişdir.

Mənbələrdə hər zaman mütəfəkkir haqqında yüksək fikirlər söylənilmişdir. Burada Eynəlqüzat Miyanəci "kəramətli imamların və müqəddəslərin böyüklərindən biri" kimi xatırlanır. Bildirilir ki, o, əsrin fəzilətlilərindən biri, fəqih, ədib, zəka və fəzilətdə nümunə göstərilmişdir. Sufizmə meyl etmiş, onların təsvirəgəlməz kəlamlarını, işarələrini əzbər bilmişdir. Mütəfəkkir dini və başqa əsərlərində Əbu Məhəmməd Qəzalinin ardıcılı olmuşdur (əs-Səfədi, 2000: 191; əl-Yəməni, 1997: 178).

28-29 yaşlarında o azadfikirlilik üstündə müsəlman qanunçuları - fəqihlər tərəfindən təqiblərə məruz qalmış, ayrı-ayrı yerlərdə onu kafir elan edərək ölümünə fitva vermişlər.

Mütəfəkkir haqsız ittihamla Bağdada aparılaraq zindana salınmışdır. Bir müddət qürbətdə saxladıqdan sonra Eynəlqüzat Miyanəcini Həmədana qaytarır və 1131-ci ildə may ayının 6-da otuz iki yaşında dərs dediyi mədrəsədə edam edirlər (Məmmədov, 1994: 124).

Eynəlqüzat Miyanəci fəlsəfi fikir tarixində görkəmli filosof, panteizmin banisi sayılmaqla yanaşı, ərəb dilli Azərbaycan ədəbiyyatında istedadlı ədib və şair kimi də diqqəti cəlb edir. Mütəfəkkirin ərəb, fars dillərində qələmə aldığı əsərlərindəki bədii xüsusiyyətlər yüksək qiymətə layiqdir.

Eynəlqüzat Miyanəcinin həyatından bəhs edən mənbələrə müqayisəli yanaşdıqda və müəllifin özünün də bildirməyinə əsasən o, on dörd əsərin müəllifidir. Lakin onların əksəriyyətinin ancaq adları məlumdur. Alim əsərlərini ərəb və fars dillərində qələmə almışdır. Həmin əsərlərin təbliğində İran alimi Əfif Useyranın xidmətləri böyükdür. O, filosofun “Həqiqətlərin məğzi” (“ زبدة الحقائق”), “Müqəddimələr” (“تمهيدات”) və “Qəribin şikayəti” (“شكوى الغريب”) əsərlərini çap etdirərək onların hər birinə iri həcmli müqəddimələr yazmışdır. Bundan başqa alim mütəfəkkirin müxtəlif şəxslərə ünvanladığı məktublarını toplayaraq nəşr etdirmişdir.

“Həqiqətlərin məğzi” (“زبدة الحقائق”) əsəri ərəb, “Müqəddimələr”(“تمهيدات”) isə fars dilində qələmə alınmışdır. “Həqiqətlərin məğzi” fəlsəfi məzmunu ilə mütəfəkkirin dünyagörüşünü əks etdirir və bədii xüsusiyyətlərdən uzaqdır. “Müqəddimələr” isə fəlsəfi fikirlərilə yanaşı, dərin məzmunlu rübailərilə də diqqəti cəlb edir.

Mütəfəkkirin yaradıcılığında ərəbdilli nəzm və nəsr nümunələrindən bəhs edərkən onun ömrünün sonlarında qələmə aldığı qısaca “Qəribin şikayəti” (“شكوى الغريب”) kimi tanınan “Ölkələrin alimlərinə vətənindən ayrı salınmış qəribin şikayəti” (“شكوى الغريب عن الاوطان الى علماء البلدان”) traktatı göstərilir. Mütəfəkkir onu Bağdad həbsxanasında olarkən qələmə almışdır. Professor Malik Mahmudov traktatı Azərbaycan ədəbiyyatında ərəbdilli nəsrin ilk nümunəsi saymış və bildirmişdir ki, ““Şəkva əl-ğərib”ə qədər ərəbdilli bədii nəsr belə bir orijinal əsər tanımırdı” (Mahmudov, 1983: 149).

Məzmunu, mahiyyəti etibarilə bu əsər müəllifin dövrümüzə gəlib çatmış digər risalələri və məktublarından fərqlənir. Burada adi məişət həyatında rast gəlinən münasibətlərlə, duyulan xoş və bədbin hisslərlə, iztirablarla bərabər yüksək zəkaya sahib filosofun dərin fəlsəfi fikirləri də əksini tapmışdır. Traktatda bədii təmayüllər həddən ziyadə çoxdur.

Çox zaman tədqiqatlara nəzər saldıqda sufizmin panteist fəlsəfəsinin İbn Ərəbidən etibarən meydana çıxdığı bildirilir, ona qədər söylənilən fikirlərin ifadə deyil, meyl olduğu göstərilir. Lakin Eynəlqüzat Miyanəcinin fəlsəfi irsinin Azərbaycanda yeganə tədqiqatçısı AMEA-nın müxbir üzvü Zakir Məmmədov həmin fikirləri təkzib edərək bu səpkidə olan mövcud mülahizələri təqdim etdikdən sonra yazmışdır: “Əslində sufizmin panteist fəlsəfəsi İbn Ərəbidən hələ yarım əsrdən çox əvvəl Azərbaycan mütəfəkkiri Eynəlqüzat Miyanəcinin əsərlərində dolğun şəkildə öz ifadəsini tapmışdır” (Məmmədov, 1978: 154). Alimin ilk dəfə gəldiyi qənaət Eynəlqüzat Miyanəcinin dünyagörüşünə verilmiş yüksək qiymətdir. Bu əslən azərbaycanlı alim və mütəfəkkirlərin Şərqin zəka xəzinəsinin zənginləşməsində xidmətlərinə, zamanında fikir ümmanına ilk töhfələr verməyə qadir olduqlarına bariz nümunədir.

**Şihabəddin Yəhya Sührəvərdi:**

XII əsrdə əqidəsi uğrunda qətlə yetirilmiş digər mütəfəkkir Şihabəddin Yəhya Sührəvərdidir (1154-1191). Mütəfəkkir Zəncan yaxınlığında Sührəvərd qəsəbəsində anadan olmuşdur. Yəhyanın uşaqlığı ilə bağlı mənbələrdə məlumatlara rast gəlinmir. Lakin onun imkanlı ailədən olması şübhəsizdir. Mütəfəkkirin ilk təhsilindən söz açarkən fiqhin əsasları və fəlsəfəni Marağada Məcdəddin Cilidən öyrənməsi İbn Xəllikanda, Yaqut Həməvidə, Taşköprizadədə əksini tapmışdır. Müəllim kimi Məcdəddin Cili neçə-neçə görkəmli alimlərə və mütəfəkkirlərə dərs demişdir. Onlardan biri də Fəxrəddin Razi idi. “Müəllimin və təhsil proqramının eyni olmasına baxmayaraq, Şihabəddin Sührəvərdi ilə Fəxrəddin Razi müxtəlif ideya istiqamətləri tutmuş,

əqidələri, dünyagörüşləri etibarilə kəskin fərqlənmişlər" (Məmmədov, 2009: 15).

Şəmsəddin Şəhrəzuri öz əsərində müəlliminin, Azərbaycanın, Yaxın və Orta Şərq ölkələrinin mühüm şəhərlərindən Ərdəbil, Miyanə, Diyarbəkr, Xərbut, Konya, Sivas, Mardin, Bağdad, Dəməşq və Hələbə səfər etdiyini göstərmişdir. Dərin zəkalı, yüksək istedadlı, azadfikirli mütəfəkkir tez bir zamanda fəlsəfi mülahizələri ilə müsəlman Şərqi ölkələrində böyük nüfuz əldə etdi. O, "Rum Səlcuq hökmdarı İzzəddin Qılıc Arslanın (1156-1188) rəğbətini qazanmış, onun uşaqlarına (Süleyman, Börküyarıq və Məlikşah) dərs demişdir" (Məmmədov, 2009: 16).

Şihabəddin Sührəvərdi 1183-cü ildə Hələbə gəlir. Həmin dövrdə orada hakimiyyət Əyyubilər sülaləsinin əlində idi. Misir, Suriya və Yəməni əhatə edən bu ərazilərin başında Səlahəddin Əyyubi dayanırdı. Sülalənin adı onun babası Əyyub ibn Sədidən götürülmüşdür. Öz oğlu Qazini Səlahəddin Əyyubi Hələbə vali təyin edir. Sonralar əl-Məlik əz-Zahir böyük nüfuz qazanaraq bütün şimali Suriyada tanınaraq Əyyubilər arasında ilk sultan titulunu alan şəxs oldu.

"Hələbə daxil olan Şihabəddin Sührəvərdi özünün qətiyyətli, azadfikirli, əzmkar çıxışlarını burada da davam etdirdi. Şeyx İftixarəddinin başçılığı ilə keçirilən Hələviyyə mədrəsəsindəki disputlarda nümayiş etdirdiyi natiqlik qabiliyyəti və iti mühakiməsi tez bir zamanda onu şöhrətləndirdi... Mütəfəkkirin şöhrəti hakim əl-Məlik əz-Zahirə (1186-1215) çatdı. Hələb hakimi onun zəkası, çıxışları ilə xüsusi maraqlanaraq zamanının görkəmli alim və fəqihlərindən ibarət məclis təşkil edir, Şihabəddin Sührəvərdi oraya dəvət olunur. Bir çox elmi mübahisə və mükalimələrdə o, qalib gəlir, əl-Məlik əz-Zahirin ehtiramını qazanır. Bu şöhrət və ehtiram eyni zamanda ona qarşı düşmən münasibətdə olan qüvvələr yaradır. Onlar mütəfəkkirin bilik və bacarığı müqabilində aciz qalacaqları təqdirdə bu zəka sahibini məhv etməyi qərara alırlar" (Zakirqızı (Məmmədova), 2010: 35).

İbn Xəllikan yazırdı ki, onu əqidə pozğunluğu və dinsizlikdə günahlandırdılar. Şihabəddin Sührəvərdinin əleyhinə məktub hazırlayıb Əl-Məlik əz-Zahirdən filosofun qətlini istəyirlər. Lakin hakimin bununla razılaşmadığını görüb atası Səlahəddin Əyyubiyə müraciət edirlər. Yalnız belə təzyiq qarşısında aciz qalan Hələb hakimi Sührəvərdini həbs etdirir. Mənbələrdə onun hansı üsulla öldürülməsi barədə müxtəlif fikirlər vardır. Bəziləri onun ac saxlanıldığını, bəziləri boğulduğunu, qaladan atıldığını və başqa fərziyyələr irəli sürmüşlər. Digər mülahizələrdə isə göstərilmişdi ki, mütəfəkkir özü üçün qalada ac qalmaq qətlini üstün tutmuşdur. O, Hələb qalasında həbs edilərək öldürülmüşdür. Onun ölüm tarixi ilə bağlı müxtəlif fikirlər vardır. Lakin mənbələrin müqayisəsindən həmin tarix barədə qəti şəkildə 1191-ci il qənaətinə gəlinir.

Zamanın haqsızlığı, bədxah insanların qara niyyəti nəticəsində bu böyük şəxsiyyət cəmi otuz yeddi il ömür sürsə də mənalı və məhsuldar bir həyat yaşayaraq orta əsrlər elm ümmanına özünün əlli iki dürrü xatırladan əsərlərini töhfə etmişdir. Həmin əlli iki əsərin təəssüflər olsun ki, hamısı dövrümüzə gəlib çatmamışdır. Lakin onların adları və mövcud traktatların əlyazması, çap nüsxələri barədə geniş məlumatlar Zakir Məmmədovun hazırladığı biblioqrafik məlumat kitabında verilməsi əvvəldə qeyd edilmişdir.

Şihabəddin Sührəvərdinin ərəbdilli poeziyasından bəhs edərkən ilk növbədə Dəməşq şəhərinin Zahiriyyə kitabxanasında saxlanılan şeir divanının yarımçıq nüsxəsi göstərilir. Mütəfəkkirin nəsr yaradıcılığına gəlincə, onun sufi-fəlsəfi əsərləri bədii xüsusiyyətlərinə görə ədəbi nümunə kimi yüksək dəyərləndirilməlidir.

**İmadəddin Nəsimi:**

Eynəlqüzat Miyanəcini və Şihabəddin Sührəvərdini İmadəddin Nəsiminin ideya sələfləri saymaq mümkündür. Sələflərindən fərqli olaraq Nəsimi şeirlərini üç dildə: türk, ərəb və farsca yazmışdır. "Nəsimi şeiri bədii dilinə görə də diqqətə layiqdir. Şair dərin fəlsəfi məsələləri, humanist fikirlərini yüksək poetik forma və üslubda qələmə almışdır. Onun şeirləri bədii-poetik xüsusiyyətlərinə görə klassik ədəbiyyatın ən gözəl və kamil nümunələridir. "Ana dilində öz xalqına xitab edən" Nəsimi xalqın öz dili ilə öz ruhunu ifadə edir, böyük bir ədəbi-tarixi vəzifəni şərəflə

yerinə yetirir” (Səfərli, Yusifov, 1982: 199).

Sələflərindən fərqli olaraq, Nəsimi yaradıcılığı tədqiqatçılar tərəfindən çox zaman görkəmli şair kimi araşdırılmışdır. Nəsimi şeirləri zahirən misilsiz bədii ifadələrlə zəngin olmaqla yanaşı, dərin fəlsəfi məzmunu ilə də tədqiqatçıları özünə cəlb etmişdir.

“İmadəddin Nəsiminin dünyagörüşü Qədim Şərq, Qədim Yunanıstan, habelə orta əsrlərin müxtəlif ideya cərəyanları (peripatetizm, sufilik, işraqilik, xüsusən hürufilik) zəminində yaranıb formalaşmışdır. Onun əsərlərində Zərdüşt, Pifaqor, Platon, Aristotel, Bistami, Həllac, İbn Sina, Eynəlqüzat Miyanəci, Şihabəddin Sührəvərdi və başqalarının, ən çox isə ilahiləşdirib pərəstiş etdiyi Fəzlüllah Nəiminin təsiri duyulur” (Məmmədov, 1994: 266).

İmaməddin Nəsiminin panteist fikirləri mütəfəkkirin mülahizələrindən qaynaqlandığından şairi Eynəlqüzat Miyanəcinin xələfi saymaq mümkündür. Lakin onun panteist mövqeli fikirləri bir qədər başqa şəkildə təqdim olunmuşdur. “Nəsiminin panteizmini sufilərin fəlsəfəsindən fərqləndirən başlıca xüsusiyyət onun hürufi rəmzlərindən istifadə etməsidir” (Məmmədov, 1994: 270).

“Nəsiminin öldürülməsi məhkəmə üzvləri, din xadimləri, üləma və qazılar arasında ciddi mübahisəyə gətirib çıxarmışdır. İbn Hilal öz əlilə fitva yazsa da, məhkəmədə heç kəs onunla razılaşmayıb dağılmışdır. Nəsimi yalnız Sultan Müəyyədin əmri ilə 1417-ci ildə edam edilmişdir” (Səfərli, Yusifov, 1982: 193).

**Yaradıcılıqların müqayisəsi:**

Eynəlqüzat Miyanəcinin ədəbi-bədii yaradıcılığı barədə geniş danışmaq mümkündür. Burada yalnız bu üç mütəfəkkirin yaradıcılığında bənzər bəzi məqamlar müqayisəli göstəriləcəkdir.

Mütəfəkkir şeirlərinin birində insanın cismi və ruhu ilə bağlı gözəl bənzətmələrdən istifadə edilmişdir. Bu mövzuya təkcə Eynəlqüzaqt Miyanəcinin deyil, Azərbaycan ədəbiyyatının digər nümunələrində, ümumən Şərq ədəbiyyatında tez-tez rast gəlinir. Şair demişdir:

افکند دلم رخت بمنزلگاهی
کآنجا نبود بصد دلیلان راهی
چون من دو هزار عاشق اندرماهی
می کشته شود که بر نیارد آهی

Ürəyim libasını sığınacaqda buraxdı
Orada yüzlərlə səbəbə yol olmur
Ayda mənim kimi iki yüz aşiqi
Öldürülür ki, ah da etmirlər (əl-Miyanəci, 2, 1062: 85).

Şərq ədəbiyyatında şairlərin ruha və cismə müxtəlif bənzətmələrlə yanaşması geniş yayılmış mövzularadndır. Burada isə mütəfəkkirin cisminə verdiyi ad maraq doğurur. Eynəlqüzat Miyanəci ilk misrada “ürəyim libasını” dedikdə insan cismini nəzərdə tuturdu. Ruhu həmin libası geyinərək maddi aləmə bağlanmışdır. Onun qəlbi ilahiyə olan sevgisilə yüksək məqama can atır, bəşəri həyatdan daha çox əbədilik sevdası ilə yaşayır. Həsrətlə dolu qəlbinj ən böyük arzusu vüsala qovuşmaqdır. Bununla da sanki öz saxlanc yerindən çıxaraq müqəddəs bir yola qədəm qoyacaqdır. Hər hansı şübhəyə, ehtimala yer olmayan bu yola başlayan aşiq bütün məhrumiyyətləri, çətinlikləri göz önünə alaraq cismani yoxluğuna da hazırdır. Öz məhəbbəti naminə atılan bu addımla sevgisini nümayiş etdirir və mətin dayanır. O, həmin eşqin yolunda canından keçməyə hazır çoxlu aşiqlərin varlığını bilirdi. Hər kəs vüsala qovuşmaq üçün düşünmədən cismani ölümünə razılaşır ki, əbədi həyatı qazansın. Çünki əbədiyyətin yeganə yolu budur.

Təbii ki, şeirdə cismin maddi aləmdə bağlılıq yaradan “libas” adlandırılması Eynəlqüzat Miyanəci təxəyyülünün gözəl bənzətmələrindən biridir.

Dünyanın faniliyindən, yer aləmində insanların qonaq olduğunu, sufinin əbədi dünyaya sevdasını anladan, eyni zamanda bədii xüsusiyyətlərilə seçilən başqaşeirində isə mütəfəkkir ruhu qəfəsə salınmış quşa bənzətmişdir:

دل مرکب حق است که درین ز ندانست
در عالم خاك مدتی مهمانست
دل مرغ حقیقت است در عالم حق
نی خود بازست که زینت سلطانست
دل زنده بجان و جان بود زنده بحق
که جان دردل و گاه دل در جانست

Ürək həqiqətin süvarisidir ki, onda həbs olunub
Yer aləmində bir müddət qonaqdır
Ürək həqiqət quşudur, Haqq aləmində
Ney özü şahin quşudur ki, sultanın bəzəyidir
Ürək canla canlıdır, can haqqla canlı
Can ürəkdədir və gah ürək candadır (əl-Miyanəci, 2, 1062: 280).

Eynəlqüzat Miyanəci "qəlb" deyərkən insan ruhunu nəzərdə tutaraq onu bəşəri aləmdə "qonaq" adlandırır və əbədilik yolu ilə səfərə çıxdıqlarını göstərmişdir. Alimin fikrincə, həqiqət yoluna qədəm qoyan möminlər cismən deyil, qəlbən bu səfərə başlayırlar. Qəlb üsyankar çırpıntılarına baxmayaraq, sanki buxovlanaraq cismində həbs edilmişdir. Maddi dünyanın faniliyini anlayan, burada özünü müvəqqəti qonaq kimi hiss edən şəxs zamanın bitəcəyi vaxtı bilmir. Ona görə də iradəsinə zidd yaşadığı cahanı özünün məhbusu sayır. Mütəfəkkir burada gözəl bənzətmədən istifadə edərək ruhunu "quş"a, cismini isə "qəfəs"ə bənzətmişdir. Ürəyini, ruhunu həqiqət yolunda qanadlanmaq istəyən quşla müqayisə edən şair bunu qürurla dilə gətirir. Bu "quş" həm də onun cismində hakimiyyət rəmzidir. O, öz nəfsini "sultan"a bənzədərək sinəsində döyünən qəlbi isə bu şahın xoş avazlı "quş"u adlandırır. Ürəyin çırpınması insanın bəşər aləmində yaşadığını sübut edirsə, ruh İlahi sevgisilə mənən varlığını nümayiş etdirir. O, Ona qovuşacağı zaman əbədi xoşbəxtliyini qazanacaqdır. Bəziləri yaşamaq üçün cismi əsas götürürsə, digərləri qəlbin sevdasını əsil həyat kimi qiymətləndirirlər.

Əksər klassik Şərq ədəbiyyatında "ruh"un "quş"a bənzədilməsi kimi təşbihdən istifadə olunmuşdur. Eynəlqüzat Miyanəci yaradıcılığında rast gəlinən bu təşbihi Azərbaycab ədəbiyyatı tarixində əzmi, iradəsi və talelərilə bir-birinə bənzəyən digər iki mütəfəkkirin yaradıcılıqlarından nümunələrlə müqayisə etmək mümkündür. XII əsrin görkəmli filosofu Şihabəddin Yəhya Sührəvərdini və XIV əsrin böyük şairi İmadəddin Nəsiminin əsərləri arasında həmin bənzətmə özünəməxsus şəkildə ifadəsini tapmışdır.

Əqidəsi uğrunda öldürülməkdən belə çəkinməyən dahi mütəfəkkir Şihabəddin Yəhya Sührəvərdinin ölümünə yaxın söylədiyi bildirilən məşhur şeiri vardır. Burada maddi dünyanın faniliyindən bəhs olunur, şair cismən yoxluğu heç də məhv kimi qəbul etməyərək öz ruhunu azad quşa bənzətmişdir:

قل لاصحاب راونی میتا　　　فبکونی اذ راونی حزنا
لا تظنونی بانی میت　　　لیس ذا المیت والله انا
انا عصفور وهذا قفصی　　　طرت عنه فتخلی رهنا

Məni meyit görən dostlara de ki,
Məni hüzünlü görüb ağlasınlar.
Məni meyit zənn etməsinlər
Vallah mən meyit deyiləm
Mən quşcuğazam və bu qəfəsimdir
Uçmuş, ondan azad olmuşam (İbn Əbi Useybiə, 1965: 644).

Şairin burada "Mən bir quşçuğazam, bu qəfəsimdir ... Ondan uçmuş, girov azad olunmuşdur" deməsi həmin təşbihin işləndiyi gözəl nümunələrdəndir. Cismini "qəfəs"ə bənzətməklə onda saxlanılan "quş"u öz ruhu adlandırmışdır. Əgər "quş" qəfəsindən azad olarsa bu cismani sonluq sayılsa da, ruhunun əbədiliyə qovuşması deməkdir.

Bəzi məqamlarda Eynəlqüzat Miyanəcini və Şihabəddin Sührəvərdini XIV əsrin böyük şairi

İmadəddin Nəsiminin ideya sələfləri saymaq mümkündür. Sələflərindən fərqli olaraq, İmadəddin Nəsiminin yaradıcılığı tədqiqatçılar tərəfindən çox zaman görkəmli şair kimi araşdırılmışdır. Onun şeirləri bədii ifadələrlə zəngin olmaqla yanaşı, dərin fəlsəfi məzmunu ilə də tədqiqatçıları özünə cəlb etmişdir.

İmadəddin Nəsimi yaradıcılığında çoxlu sayda gözəl təşbihlərə rast gəlinir. Onlar arasında sələfləri kimi ruhunu “quş”a və cismini “qəfəs”ə bənzətdiyi nümunələr də vardır:

Çıx qəfəsdən, gəlgil, ey bülbül, gülüstan seyrin et ,
Bas qədəm meydani-eşqə görəsən məvayi-eşq (Nəsimi, 1972: 30).

Hürufi şairi “ey bülbül” deyərək sanki ruhuna müraciət etmiş, həqiqi eşqin mahiyyətini anlayanların əbədiliyi vəd edən İlahi sevdanın yolunu tutduğunu göstərmişdir. “Çıx qəfəsdən” hökmü ilə sanki əsl məhəbbəti anlayan aşiqin maddi buxovlardan azad olmaq istəyini və əzmini nümayiş etdirmişdir.

Həmin mövzuda yazılmış başqa beytində deyilir:

Can nə quşdur ki, qurtula deyəsən
Ənbərin zülfünün duzağından (Nəsimi, 1972: 184).

Bu misralar əvvəlki beytlə səsləşir. Burada da İmadəddin Nəsimi canı, ruhu “quş”a bənzədərək onun cismdən, yəni “qəfəs”indən qurtulmasını əbədiliyə qovuşmaq saymışdır.

“Şərab” mövzusuna gəlincə, bu anlayışının dini və fəlsəfi mahiyyəti bir-birinə yaxındır. “Dində insanlara cənnətdə vəd edilən nemətlər içərisində şərabın təsvirinə tez-tez rast gəlinir. Təfsirçilər tərəfindən həmin şərab “ruhi şərab” kimi başa düşülür. Çünki axirət aləmində hər hansı bir şey maddilikdən qat-qat uzaqdır” (Cebecioğlu, 2004: 87).

Həmin anlayışın fəlsəfi izahına gəlincə, işraqilik cərəyanının banisi, XII əsrin böyük mütəfəkkiri Şihabəddin Yəhya Sührəvərdinin yaradıcılığında “ruhi şərab”ı vəsf edən beytlərə rast gəlinir:

وتمتعوا فالوقت طاب بقربكم    راق الشراب ورقت الاقداح

Zövq almışlar, vaxt sizin yaxınlığınızla yaxşı olmuş,
Şərab təmiz və qədəhlər incədir (əl-Həməvi, 1993: 269).

Bu beyt ilk baxışda xəmriyyə janrında yazılmış və içki məclisi tərənnüm olunmuş şeiri xatırladır. Burada vəsf edilmiş qədəhlər də, şərab da reallıqdan uzaqdır.

Filosof-şairin şərabla bağlı digər beytləri şeir divanında rast gəlinir. Burada deyilir:

فتشبهو ان لم يكونوا مثله    ان التشبه بالكرام فلاح
قم يا نديم الى المدام فهاتهم    فى كاسها قد دارت الاقداح

Onlar kimi olmayana bənzəmişlər
Kəndlinin kəramətinə bənzərdir
Ey kef yoldaşı, dur qalx, köhnə şərabı ver
Qədəhlər dövr edən badələrdə (Zakirqızı, 2010: 87).

Bu misralarda da real mənada üzüm şirəsindən alınan adi şərabla ruhi şərab qarşı-qarşıya qoyulur. Şair “Ey kef yoldaşı, dur qalx” deyərək sanki dəbdəbəli içki süfrəsində oturmuş dostlarına müraciət edir. Onları badələrdə köhnə şərab içməyə dəvət edir. Əslində isə yaşadığı həyat tərzi, mənbələrin onun haqqında verdiyi məlumatlardan da aydındır ki, Şihabaddin Sührəvərdi yaradıcılığında ifadə olunmuş bütün maddi nemətlər zahiri cəhətdən deyil, batini mənada başa düşülməlidir.

Şərab mövzusu ilə bağlı digər nümunəni XIV əsrin böyük hürufi şairi İmadəddin Nəsimi yaradıcılığından göstərmək mümkündür. Şairin şeirlərinə nəzər saldıqda burada şərab mövzusuna dair beytlər Şihabəddin Sührəvərdinin fikirlərinə çox yaxındır. Onlardan birində deyilir:

Saqi, gətir bu məclis içində qədəh yürüt,
Sığmaz hədisü tövbəvü təqva, gətir şərab (Nəsimi, 1972: 25).

İmadəddin Nəsimi bu beytində saqiyə müraciətlə qədəhlərdə şərab gətirməsini istəyir. Təbii ki, onun təsvirini verdiyi bu süfrədə adi məclisi, içkiləri deyil, şərab anlayışına fəlsəfi mövqedən yanaşmışdır.

Həmin mövzuya dair digər nümunədə deyilir:

Gövnü məkandan keçmişəm, mə'ni şərabın içmişəm
Canana, üzün görmüşəm, başdan ayaq can olmuşam (Nəsimi, 1972: 135).

Burada şairin məqsədi və şərabın mahiyyəti daha aydın görünür.

**Nəticə:**

Ümumiyyətlə, orta əsrlər elm və ədəbiyyat tarixinə nəzər saldıqda müsəlman Şərqində əqidəsi uğrunda qətlə yetirilmiş onlarla görkəmli şəxsiyyətlərin adları yada düşür. Müasir dövrdə onların doğum illərilə yanaşı öldürülmə tarixləri də qeyd edilir. Bu il müxtəlif əsrlərdə yaşamış üç dahi Azərbaycan mütəfəkkirinin doğum ildönümlərilə diqqət çəkir. Eynəlqüzat Miyanəci 32, Şihabəddin Yəhya Sührəvərdi 37, İmadəddin Nəsimi 48 yaşlarında qətlə yeririlmələrinə başmayaraq, Şərq və Qərb elmi ictimayəti 2019-cu ili Eynəlqüzat Miyanəcinin 920, Şihabəddin Sührəvərdinin 865, İmadəddin Nəsiminin 650 anadan olma ildönümü kimi qeyd edir.

Bu üç dahi şəxsiyyətin irsi həm ədəbi, həm də fəlsəfi istiqamətdən tədqiq oluna bilər. Eynəlqüzat Miyanəci panteizmin, Şihabəddin Yəhya Sührəvərdi işraqiliyin əsasını qoymaqla orta əsrlər zəka ümmanına töhfələrini vermişlər. Onların hər ikisinin yaradıcılığında fəlsəfi cəhətlər ədəbi-bədii xüsusiyyətlərindən daha çox tədqiq edilmiş, Şərq və Qərb alimlərində maraq oyatmışdır. İmadəddin Nəsimi hürufiliyin məşhur nümayəndələrindən sayılsa da, onun irsi daha çox ədəbiyyatşünaslar tərəfindən araşdırılmışdır.

Təbii ki, bu üç görkəmli mütəfəkkirin dünyagörüşündə və ədəbi-bədii yaradıcılığında məzmun, forma xüsusiyyətlərinə görə müqayisəli cəhətlər çoxdur. Burada yalnız Şərq ədəbiyyatında geniş yayılmış bəzi təşbihlərə diqqət yönəldilmişdir. Ruh və ilahi şərabın təsviri ilə bağlı beytlərə bir çox orta əsr poeziyasında rast gəlmək mümkündür. Məqalədə doğum ildönümləri qeyd edilən Eynəlqüzat Miyanəcinin, Şihabəddin Sührəvərdinin, İmadəddin Nəsiminin şeirlərindən nümunələr verilməklə təhlil olunmuşdur.

**Kaynakça:**


Cebecioğlu, E. (2004). Tasavvuf Terimleri ve Deyimleri Sözlüğü. İstanbul: Anka Yayınları
əl-Əsnəvi. (1987). Təbəqat əş-şafiiyyə. əl-cuz əs-sani. Beyrut-Lubnan: Dar əl-kutub əl-ilmiyyə
əl-Həməvi Yaqut. (1993). Mucəm əl-udba. Təhqiq əd-duktur İhsan Abbas. Beyrut-Lubnan:
İbn Əbi Useybiə. (1965). Uyun əl-ənba fi təbəqat əl-ətibba. Beyrut: Dar məktəbə əl-həyat
Mahmudov, M. (1983). Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər. Bakı: Elm
Məmmədov, Z. (1994). Azərbaycan fəlsəfi tarixi. Bakı: İrşad
Məmmədov, Z. (1978). Azərbaycanda XI-XIII əsrlərdə fəlsəfi fikir. Bakı: Elm
Məmmədov, Z. (1992). Eynəlqüzat Miyanəci. Bakı: Elm
Məmmədov, Z. (2009). Şihabəddin Yəhya Sührəvərdi. Bakı: Elm
Məmmədov, Z. (1991). Şihabəddin Yəhya Sührəvərdi. Qısa biblioqrafik məlumat. Bakı: Elm
əl-Miyanəci, Abdullah, 1. (1962). Şəkva əl-ğərib. Qəddəmə ləhu və həqqəqə mətnəhu Əfif Useyran. Tehran:
əl-Miyanəci, Abdullah, 2. (1962). ət-Təmhidat. Qəddəmə ləhu və həqqəqə mətnəhu Əfif Useyran. Tehran:
Nəsimi, (1973). Seçilmiş əsərləri. Bakı: Azərnəşr
əs-Səfədi Səlah əd-din. (2000). əl-Vafi bi-l-vəfəyat. əl-cüz əs-sabi əşər. Təhqiq və itina Əhməd Ərnaut, Turki Mustafa. Beyrut-Lubnan: dar ihya ət-turas əl-ərəbi
Səfərli Ə., Yusifov X.. (1982). Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı: Maarif
əl-Yadii əl-Yəməni. (1997). Mirat əl-cinan. əl-cüz əs-salis. Vada həvaşihi Xəlil əl-Mənsur. Beyrut-Lubnan: dar əl-kutub əl-ilmiyyə
Zakirqızı (Məmmədova), Ü. (2010). Şihabəddin Yəhya Sührəvərdi (ədəbi-bədii yaradıcılığı). Bakı: Elm